


# ELM ADAMI VƏ EL ADAMI

**Hamlet İsaxanlı (İsayev),**
**Xəzər Universiteti,**
**Bakı, Azərbaycan Respublikası**

*Tanınmış azərbaycanlı riyaziyyatçı professor Məmməd Bayramoğlunun 80 illik yubileyinə həsr olunmuş "Müdrik və kamil insan" adlı kitabdan (Bakı, 2020) Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının məqaləsini (səh. 37-49) oxucularımıza təqdim edirik.*

İnsanın həyatında böyük və mühüm yer tutan maraqlı məşğuliyyətlərindən biri digər insanları yaxından tanımaq, onlarla tanışlıqdan məmnunluq duymaqdır. Tarixdə iz qoymuş böyük insanların əksəriyyətini görməmişik – az sayda müasirlərimiz istisna olmaqla. Uzaq və ya yaxın keçmişdə yaşamış tarixi şəxsiyyətləri, görkəmli elm və sənət adamlarını qiyabi şəkildə tanıyırıq, onların əsərlərini oxumaq, görmək və ya dinləməklə, onlar barədə yazılanları oxumaqla. Homer, Platon, Aristotel, Arximed, İbn Sina, Biruni, Nizami, Nəsirəddin Tusi, Mevlana Cəlaləddin, Füzuli, Leonardo da Vinci, Shakespeare (Şekspir), Newton, Beethoven, Üzeyir Hacıbəyli, Einstein kimi şair, filosof, elm və sənət adamlarını birimiz az, digərimiz çox, yəni, müəyyən dərəcədə tanıyırıq, məşhur əsərləri, elmə və mədəniyyətə verdikləri töhfələr onlara qarşı böyük hörmət doğurmuş, məhəbbət yaratmış və hətta pərəstişə gətirib çıxarmışdır.

Makedoniyalı İsgəndər, Çingiz xan, Teymurləng, Sultan Mehmet, Napoleon kimi böyük dövlət adamları və fateh sərkərdələri də pis tanımırıq, onların baş qəhrəman olduğu kitabları oxumuş, filmləri seyr etmişik. Onların istedadına hörmət etməmək mümkün deyil, hərçənd ki, bu hörmət bir çox insanlarda məhəbbətə və pərəstişə çevrilməyə bilir. Başqa sözlə desək, dövlət adamları və sərkərdələr bütün millətlər tərəfindən elliklə sevilir deyə bilmirik.

Böyük tarixi şəxsiyyətlərin həyatı, yaradıcılığı, əməlləri haqqında durmadan yazılmış, bu gün də yazılır, onların əsərləri, onlar barədə tarixi sənədlər, müasirlərinin yazı və xatirələri toplanılır, yeni şərhlər, yeni baxışlar meydana çıxır. Bu sətirlərin müəllifi də tarixi şəxsiyyətlərin, xüsusilə elm və sənət adamlarının bəşəriyyətin inkişafına verdikləri töhfələr haqqında düşünən, danışan və yazanlar sırasındadır.

Müasirlərimiz haqqında düşünüb yazmaq işi də həyatımızda xeyli yer tutur. Onların ən azı bir qismini şəxsən tanıyırıq, bəzilərini yaxşı tanıyırıq, az bir qismi ilə yoldaşlıq, dostluq edirik. Yubiley və anım günlərində çıxışlar, şəxs haqqında kitab nəşrinə töhfə vermək kimi hadisələr müasirlərimiz haqqında sözə, xatirələrə qol-qanad verir. Çox yaxın keçmişdə yaşamış, həyat sürdüyümüz ölkədə, xalq içində şöhrətlənmiş Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı, Səməd Vurğun, Rəşid Behbudov, Zahid Xəlilov, Fikrət Əmirov kimi şəxslər barədə aramızda yaşayıb xatirələr söyləyənlər mövcuddur; bu xatirələr böyük diqqətlə oxunurlar. Səməd Vurğun öləndə mənim səkkiz yaşım vardı. O zaman bu böyük şairi mənə tanı-

dan, oxutduran orta məktəbin son siniflərində oxuyan yaxın qohumumuz Göyüş Hacıməmmədov idi. Mən, yetişməmiş uşaq, Səməd Vurğunun ölüm xəbəri gələrkən Göyüşün hönkür-hönkür ağladığını görəndə bir qədər təəccüb etmişdim; qohumu deyildi, onu şəxsən tanımırdı, amma, şairin ölümünü böyük bir faciə kimi görür, ağlamaqdan özünü saxlaya bilmirdi. Əlbəttə, anlayanlar pərəstiş etdikləri böyük şəxslərin ölümünü faciə saymaya bilməzlər. Adı çəkilən böyüklərimizdən yalnız Zahid Xəlilovu az-çox yaxından tanıya bilmişdim, ona aid müəyyən xatirələrim olmuş, onları yazmışam.

Haqqında xatirə yazdığımız və yubileyində çıxış etdiyimiz şəxslər çox zaman bizdən yaşca böyük olanlardır və biz onların həyatı və qazandıqları uğurlar barədə danışmağı və yazmağı bir növ vəzifə borcu hesab edirik. Lakin, özümüz yaşa dolduqca, get-gedə ətrafımızdakı yaşlılardan birinə çevrilirik. Digər tərəfdən, gələcəyə boylanmağa davam etsək də, keçmişimizin böyüdüyünü görürük, nəinki yaşca bizdən böyük olanların, elə yaşıdlarımızın da get-gedə seyrəldiyini müşahidə edirik.

Gələcək üstündə kökləndik,
Ümidlə, arzuyla yükləndik,
Gərdişə heç məhəl qoymadıq.

Yelqanad atlaramı mindik?
Göz yumub açmamış əyləndik
Zamanın nəbzini duymadıq.

Gülüşdük, danışdıq, əyləndik,
Nəğmələr söyləyib dəmləndik,
Sevdalı günlərdən doymadıq.

Get gedə böyüdük, seyrəldik,
Get gedə nazildik, köyrəldik,
Ötəri sevdaya uymadıq.

(*Hamlet İsaxanlı. Bu da bir həyatdı. Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2006; s. 29*)

Dostum, bənzərsiz bir insan haqqında düşünərkən fikir məni uzaqlara apardı. Çox şadam ki, məndən böyük müdrik dostum var – istedadlı riyaziyyatçı, elm adamı və eyni zamanda səmimiyyətdən yoğrulmuş el adamı olan Məmməd Bayramoğlu! Məmməd müəllimin istedadı onun sadəliyi və səmimiliyi ilə birləşib, ittifaqa girib; şəxsiyyət məhz istedadla insaniliyin ittifaqında bütövləşir.

Qoca tarix təsdiq eylər:
Atılan ox düzgün dəyər–

Bir ittifaq olsa əgər
Oxla kaman arasında.

(*Yenə orada; s. 31*)

Məmməd Bayramoğlu ilə 1968-ci ilin payızında tanış oldum. Moskvadan qayıdıb Azərbaycan (indi: Bakı) Dövlət Universitetində fəaliyyətə başlayan görkəmli riyaziyyatçı Mirabbas Qasımov Operatorların Spektral Nəzəriyyəsi üzrə elmi seminar aparmağa başladı. Mexanika-riyaziyyat fakültəsinin 4-cü ilini başlamış tələbə olaraq mən də bu seminarda iştirak etmək fikrinə düşdüm. Bu seminarın ən fəal üzvlərindən biri Mirabbas müəllimin *Mamed*, bizim isə *Mamed müəllim* deyə müraciət etdiyimiz gənc idi (o dövr ruscanın təsiri ilə *Məmməd*`ə *Mamed* də deyirdilər; hərçənd ki, Türkiyə`də bu adın *Memed* şəkli vardı, Yaşar Kemal`ın *İnce Memed* romanı məşhurdur). Məmməd müəllimin qəbul etdiyi tam tarixi-milli *Bayramoğlu* soyadını isə ruscanın təsiri altında qanuniləşmiş “ov”, “yev” sonluqlu soyadlara qarşı bir üsyanın, həmçinin uzaqgörənliyin təzahürü saymaq mümkündür.

Məmməd müəllimlə onun bir neçə xüsusiyyətinə görə yaxın tanış olub dostlaşdıq. Birinci, dediyim kimi, aramızda spectral məsələləri ən çox bilən o idi. Riyazi və ya funksional analiz üzrə aspiranturanı (PhD proqramını) bitirmişdi, elmi marağı diferensial operatorların spectral nəzəriyyəsi idi. Bildiyini çox yaxşı bilir, izah və şərh edirdi. İkinci, Məmməd müəllim çox mehriban və açıqfikirli, sadə və istiqanlı, söhbətçil və zarafatcıl idi. Elə ilk gündən aradakı yaş və bilik sədlərini aşağı endirdi – belə demək mümkünsə. Bizi bir-birimizə yaxınlaşdıran daha bir cəhəti də danmaq olmaz, biz yerli (gürcüstanlı)

idik. Eyni adət-ənənə, eyni ləhcə özümüzdən asılı olmadan bizi doğmalaşdırır, bir-birimizə bağlayır. Əlbəttə, yerliçiliyi mütləqləşdirmək naqislikdir, yerli, amma əks təbiətə malik olub uzaq durduğumuz və əksinə, müxtəlif yerlərdən, hətta müxtəlif millətlərdən, irqlərdən olub təbiətcə yaxınlıq hiss etdiyimiz, dost olduğumuz insanlar az olmamışdır.

Tanışlığımızdan bir il keçməmişdi ki, Məmməd müəllim dissertasiyasını yazıb bitirmiş, onu müdafiəyə çıxarmağa hazırlaşırdı. Seminardan sonra mənə yaxınlaşdı, "dissertasiyamı doldurmağa kömək edərsənmi" dedi. İndiki nəsil bunu bilmir, amma eşitmiş olar: o zaman personal (fərdi) kompüter yox idi, sözlü mətni yazı makinasında yazır (yazdırır), sonra həmin mətn daxilindəki düsturları əl ilə yazırdılar, buna "dissertasiyanın doldurulması" deyilirdi. Dissertasiya işi adətən 5-6 nüsxədə hazırlanırdı. Məmməd müəllimin "Xutor" adlanan yerdəki evində işə başladıq. Məmməd müəllimin həyat yoldaşı Məhbubə xanım da çox mehriban və qayğıkeş, şair təbiətli bir xanım idi. Onların xasiyyətləri, danışıq tərzləri bir-birinə çox bənzəyirdi. Sonralar biz ailəvi dost olduq, Əhmədlidə eyni evdə yaşadıq, gedişgəlişimiz oldu, Məmməd müəllim və Məhbubə xanım çətin günlərimizdə bizə dayaq oldular.



*İki dost ailə*

Məmməd müəllim dissertasiyanı səliqə ilə və ikiqat sürətlə doldurmağıma çox təəccüblənir, tez-tez bunu qeyd edir, razılıqla başını bulayırdı. İşləyir, söhbət edir, zarafatlaşır, yeyib-içirdik. Biz tərəflərə xas olan aşıq musiqisi sədaları özünü göstərirdi. Az qala hamımız musiqi məclisimizin fəal üzvü idik. Mən daha çox Bülbül, Rəşid, Şövkət və Zeynəbin repertuarından mahnıları zümzümə edirdim, Məmməd müəllim "oxu, oxu" deyə məni ruhlandırırdı. Ətirli, mürəbbəli çay, möcüzəli riyazi düsturlar, gözəl mahnılar… - kefimiz göyün yeddi qatında idi. Mən özümdən asılı olmadan, mümkündür ki, oxşar ladların təsirilə bir mahnıdan o birinə keçirdim və… Zeynəb xanımın oxuduğu mahnını başladım: Məhbuuubəəəəm…Və birdən dayandım, "mən nə edirəm?". Məmməd müəllim özünə xas təbəssümlə "Yaxşı mahnıdır, davam et" desə də, mən utandım, zümzümə etməyi bir qədər dayandırdım.

Onu da deyim ki, Məhbubə xanımın şair təbiəti, aşıq müsiqisinə vurğunluğu və evdəki səmimi yaradıcı mühit öz sözünü dedi, Məhbubə xanımın, səhv etmirəmsə, beş şeir kitabı işıq üzü gördü, kitabların redaktoru isə Məmməd müəllim özü oldu! Məmməd müəllimin bənzərsiz şəxs olduğunu yuxarıda qeyd etmişdim. Bununla yanaşı onun bütün ailə üzvləri və yaxın qohumları xeyli dərəcədə Məmməd müəllimə oxşayıblar, sifət ifadələrində, danışıqda, sadəlikdə, ümumiyyətlə, xasiyyətdə və insani keyfiyyətlərdə; Məmməd müəllim onlar üçün örnək olmuşdur. Məmməd müəllimin də, Məhbubə xanımın da uşaqlıq və ilk gənclik illəri asan olmayıb…

Uşaq qəlbim böyüklərin
dərdi ilə yüklənərdi
Uşaq qəlbim tez-tez qəmli
havalara köklənərdi.

Hələ körpə uşaq ikən
ağrılara düçar oldum
Vaxtından tez böyüdüm mən
uşaq ikən yaşa doldum.

(*Hamlet İsaxanlı. Ziyarət.*
*Xəzər Universitəsi Nəşriyyatı, Bakı, 2009; s. 112*)

Məmməd müəllim dissertasiyasının doldurulmasında iştirakımın əvəzini artıqlaması ilə verdi, mənim Lomonosov Moskva Universitetində yazdığım namizədlik (PhD) dissertasiya işimin Bakıda müdafiəsi zamanı rəsmi opponentlərdən biri kimi dissertasiyanı oxudu, yaxşı rəy yazdı və çıxış etdi. Məmməd müəllim həyatı boyu başqalarının uğurlarına ürəkdən sevinməyi bacaran şəxsdir. Mənim müəyyən kiçik uğurlarım barədə ağız dolusu danışmasını da onun bu qabiliyyəti ilə izah edirəm.

Məmməd Bayramoğlu müdrik şəxsdir, maraqlı adamdır. Həyata münasibəti, hikmətli, bir qədər də atmacalı sözləri, gözlənilməz fikirləri ilə seçilir. Sovetlərin qatı 1970-ci illərində bir dəfə ortaya “sizcə Sovet hökuməti nə yetişdirir?” deyə bir sual atdığı yadımdadır. Təbii ki, öz cavabı vardı ki sual vermişdi. Mənim “çox şey yetişdirir, sən hansını demək istəyirsən?” qarşı sualıma cavabı belə oldu: “Sovet hökuməti həm də tülkü yetişdirir!” Məmməd müəllim cəmiyyətdə rast gəlinən mənəviyyatsızlığı, yaltaqlığı, ikiüzlülüyü, əqidəsizliyi nəzərdə tuturdu.

Doğru yolla getmək deyilsə asan
Gərək saga, sola sapmasın insan -
Əqidə nə bığdır, nə də ki saqqal
Hərdən uzadasan, hərdən qırxasan.

(*Hamlet İsaxanlı. Dördlüklər.*
*Xəzər Universitəsi Nəşriyyatı, Bakı, 2007; s. 24*)

Təbiəti və təbiiliyi çox sevir, bir sıra bəlaların səbəbini sünilikdə görür. Bir dəfə Moskvada səfərdə idik, səhər yuxudan duranda kefi kök idi, üzünü mənə tutub “bilirsən bu gecə nə kef çəkmişəm?” dedi və cavabını gecikdirmədi: gecə çox yaxşı yatdım, heç evimizdə belə yatmamışdım, səhər tezdən durub həyətdə gəzdim və şirin yuxumun səbəbini anladım, mehmanxana binası kərpiclə tikilib, bizim ev kimi betonla deyil.

Məmməd müəllim assosiativ düşüncəli şəxsdir, bir şey haqqında düşünərkən, nəyisə öyrənərkən onunla bağlı bir sıra şeyləri yada salır, ağla gəlməyən müqayisələrə baş vurur. Onun ingilis dilini öyrənmə metodu qeyri-adi dərəcədə maraqlıdır, ingiliscə söz və ifadələrin səslənməsini azərbaycan dilindəki heç dəxli olmayan və ya az dəxli olan söz və ifadələrlə elə bağlayır və bunu elə ifa edir ki, qarşıdakı adam həzz alıb qəhqəhə çəkir. Dillə bağlı törətdiyi (bəli, törətdiyi!) bir hadisə də çox maraqlıdır. Məmməd müəllim Elmlər Akademiyasının Dilçilik İnstituna gedir, direktorun qəbul otağına girib köməkçiyə kim olduğunu və direktorla görüşmək istədiyini bildirir. Direktor Məmməd müəllimi hörmətlə qəbul edir, çay içirlər. Direktor Məmməd müəllimin haradan gəldiyini soruşur. Məmməd müəllim təbəssümlə “Riyaziyyatçılıq İnstitutundan gəlmişəm” deyir. Qarşısındakının elmlər doktoru, professor olduğunu bilən direktor çaş-baş qalıb yavaşca “Müəllim, Riyaziyyatçılıq nədir, yəqin Riyaziyyat İnstitutu demək istəyirsiniz” deyir. Məmməd müəllimin cavabı onun gəlişinin məqsədini açır: “Bəs sizin institut niyə Dil İnstitutu deyil, Dilçilik İnstitutu adlanır, baxın, Riyaziyyat İnstitutu, Fizika İnstitutu, Kimya İnstitutu, Tarix İnstitutu, Ədəbiyyat İnstitutu deyilmirmi?! Bu Dilçilik İnstitutu ifadəsi hardan çıxdı?”. Direktor tam çaşır və yalnız yavaşca “bu institutun adı mən bura direktor təyin olunandan çox əvvəl qoyulub” deyə bilir.

1977-ci ilin yayı yaxınlaşırdı. Məmməd müəllim də, mən də Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda çalışırdıq. Bir gün Məmməd müəllim “hazırlaş, Gəncəyə gedirik” dedi və izah etdi: onu və məni Gəncə Dövlət Universitetinin Riyaziyyat fakültəsi üzrə məzun olacaq tələbələrin dövlət imtahan komissiyasına sədr təyin etmişdilər. Düzü bu təyinat necə olub, kimin təşəbbüsü ilə -

bunlar yadımda deyil. Gəncə sevdiyim yerdir, ancaq imtahan komissiyasının sədri ideyası xoşuma gəlmədi. Bu işdən necə azad ola bilərəm deyə  Məmməd müəllimdən məsləhət almaq istədim, o isə mənim başıma ağıl qoydu: "Nə danışırsan? Birinci səni sayıb sədr təyin ediblər, özünü dartsan bu yaxşı təsir bağışlamaz. Sonra, burda qalıb nə edəcəksən? Adam arasına çıx, bir az kömək elə, bir az da dincəl". Məni inandırdı, Gəncəyə yola düşdük. Doğrudan da, işləyir, yeni insanlarla tanış olur və dincəlirdik. Tanış olduğum maraqlı insanlardan biri ədəbiyyatçı və şair Sabir Əliyev idi, elmi söhbətlərlə yanaşı bir neçə sazlı-sözlü məclislərdə olduq.



*Soldan: Məmməd Bayramoğlu, Sabir Əliyev və Hamlet İsaxanlı* (*21iyun1977,Gəncə*)

Gəncə tələbələri arasında bir istedadlı oğlan varmış - Əfqan Aslanov, onu mənə təqdim etdilər, elmlə məşğul olmaq, mümkünsə mənimlə işləmək arzusunu bildirdi (sonra mənim rəhbərliyim altında çoxparametrli spectral məsələlərlə məşğul oldu, dissertasiya müdafiə etdi, daha sonralar Türkiyə`yə köçdü). Daha bir neçə qabiliyyətli tələbə mənə yanaşır, suallar verir, cəbr, analiz, diferensial tənlik kimi sahələrə maraq göstərirdilər. Onlar funksional analizin əsas ideya və məsələləri haqqında bir-iki dəfə danışmamı xahiş etdilər. İş burasındadır ki, imtahanlar bitən kimi yeməyə gedirdik, sonra axşam olur, müəyyən görüşlərə gedir və yorğun vəziyyətdə mehmanxanaya qayıdırdıq. Tələbələrin xahişini yerinə yetirmək üçün növbəti gün mən yeməyə getməməyi qərara aldım, "Məmməd müəllim, mən bir az uşaqlarla məşğul olmaq istəyirəm, siz gedin" dedim. Məmməd müəllim "sonra ac qalarsan ha" deyə xəbərdarlıq edib yoldaşları ilə getdi. Mən yazı taxtasında yazdım-pozdum, danışdım, tapşırıq verdim, söhbət xeyli uzandı. Tələbələrin razı qaldığı görünürdü. Kefim kök mehmanxanaya qayıtdım, azca sonra Məmməd müəllim də qayıtdı. Ona acdığımı söylədim. Məmməd müəllim əlini-əlinə vurub qəhqəhə çəkdi: "sənə demədimmi ac qalacaqsan, böyüyün sözünə baxmadın., indi get yemək tap görüm tapa bilirsənmi". Mən "heç olmasa bir az çörək-pendir tapaq" deyə xahiş etdim. Məmməd müəllim yenə "ac qal, sənə belə lazımdır, xalq kabab yeməyə gedir, bu da uşaqlara mühazirə oxuyur" deyə məni qınayırdı. Nəhayət, insafa gəldi, yemək təşkil etdi, aclıqdan xilas oldum. Bu hadisəni Məmməd müəllim sonralar da ləzzətlə danışıb gülürdü. Əlbəttə, burada mənə toxunmaq məsələsi

yoxdu, əksinə, yəqin ki, mənim tələbələrlə məşğul olma həvəsimi, bəyənir və bunu vurğulayırdı, amma, eyni zamanda, ac qalmağımı öncədən görə bildiyini yada salıb, əhvalata bir az da bəzək vurub özünü və bizi şənləndirirdi.

Gəncə və Məmməd Bayramoğlu ilə bağlı daha bir maraqlı əhvalatı yadımdadır. Gəncə Dövlət Universitetinin əməkdaşı Tofiq Kərimov Bakıda Riyaziyyat və Mexanika İnstitunun aspiranturasına daxil olur, Fəraməz müəllim Maqsudov isə elmi rəhbər təyin edilir. Səhv etmirəmsə, Tofiq hörmətli müəllimimiz Qoşqar Əhmədovun qohumu idi. Fəraməz müəllim Məmməd Bayramoğlunu çağırıb, "Tofiqə kömək et" deyir. Məmməd müəllim kömək etməyə başlayır; Tofiqə, diferensial operatorların spektral nəzəriyyəsinin elementlərini öyrətməyə çalışır. Tofiq həvəslənir, ərklə "Məmməd, sən canın elmi məsələmi də dəqiqləşdir" deyir. Məmməd müəllim dissertasiya mövzusunu və həll ediləcək məsələlərin qoyuluşunu dəqiqləşdirir, Fəraməz müəllimlə razılaşdırır və Tofiqə izah edir. Bundan ruhlanan Tofiq "Qağa, məsələlərin həllinə kömək et" deyir, Məmməd müəllim onun xahişini nəzərə alır, məsələlər addım-addım həll olunmağa başlayır. Tofiq növbəti xahişini edir: "Qağa, məqalələri hazırlamağa və jurnallarda nəşrinə kömək et". Beləliklə, Tofiqin dissertasiya işi hazır olur. Tofiq "Qağa, müdafiənin təşkilinə kömək et, avtoreferatı hazırlayaq, opponentlər təyin olunsun" deyə sanki son xahişini edir. Fəraməz müəllim də bir az işə qarışır. Məmməd müəllim Tofiqi müdafiə üçün məşq də elətdirir. Müdafiə başa çatır, Tofiq Məmməd müəllimin yanına gəlir, sən demə sonuncu xahişi də varmış: "Qağa, çox sağ ol, bütün işləri gördün, indi bir qonaqlıq da ver, çıxım gedim Gəncəyə".

İstedadlı riyaziyyatçı, tanınmış elm adamı və bütün varlığı ilə əsl el adamı olan dostum Məmməd Bayramoğlu haqqında bu qeydlərimi, göründüyü kimi, keçmiş zaman feilləri vasitəsilə ifadə etdim. Məmməd müəllimlə xeyli gözəl, maraqlı yoldaşlığımız olub. Sonra görüşlərimizin sayı azaldı, mənim Xəzər Universitetində başım qarışdı, Məmməd müəllim öz fəaliyyətini Riyaziyyat və Mexanika İnstitutunda uğurla davam etdirdi. Bir qədər aralı qaldığımız dövrdə o da, mən də həm müəyyən xoş anlar yaşadıq, həm həyatın acısını daddıq-duyduq.

Həya üzdə, ismət canımızdadır
Könül hərarəti qanımızdadır
Sevinc də, kədər də uzaqda deyil
Biri sağ, biri sol yanımızdadır.

(*Hamlet İsaxanlı. Dördlüklər.*
*Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2007, s. 43*)

Məmməd Bayramoğlu nikbin adamdır, həyatını sadə və mənalı yaşayır, ona can sağlığı və uğurlar arzulayıram!

Çalışaq daha tez-tez görüşək, əziz Məmməd müəllim!

## ARTICLE BY PROFESSOR HAMLET ISAKHANLI IN THE BOOK "ELM ADAMI VE EL ADAMI"

The book entitled "Mudrik ve kamil insan" (Wise and Accomplished Man) dedicated to the 80th anniversary of the famous Azerbaijani mathematician Professor Mammad Bayramoghlu has been published (Baku, 2020). The book also includes "Man of Letters and Man of the People" memoirs about Mammad Bayramoghlu by Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees (pp. 37-49).

The authors-compilers of the book, published by "ULU" Production and Commercial Company, are Ramiz Aslanov and Tamilla Hasanova, editor is I. Nabiyev.